DOI: https://doi.org/10.36719/2706-6185/52/17-21

**Fərqanə Əliyeva**
DİN-in Polis Akademiyası
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0009-0008-2504-3580
farqana-627@mail.ru

# Natiqlikdə effektiv nitq texnikaları: fonetik və ritorik yanaşmalar

## Xülasə

Bu araşdırmada çıxış zamanı effektiv nitq nümayiş etdirmək üçün nitq texnikalarının əhəmiyyətindən bəhs edilmişdir. Belə ki, praktik nümunələr əsasında fonetik və ritorik yanaşmalar vasitəsilə intonasiya və artikulyasiya məsələləri müşahidə olunaraq tədqiq edilmiş, nitq texnikaları təhlil edilmişdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı metodlardan istifadə edilmişdir: nəzəri təhlil, müqayisəli təhlil və empirik metod.

Tanınmış nitqlərdən fraqmentlər dinlənilməklə aydın və qeyri-aydın nitq nümunələri müqayisə edilərək, nitq texnikalarından səsin tonu, pauza, vurğu, nəfəsin və səsin yaranma məxrəcinin düzgünlüyünün natiqlikdə zəruri olduğu praktik olaraq araşdırılmışdır. Dil faktorlarının nitq texnikasına təsiri müşahidə olunmuşdur. Bu cür empirik müşahidələr nitq texnikalarının inkişaf etdirilməsi üçün olduqca səmərəlidir.

Tədqiqatda nitq texnikalarının inkişaf etdirilməsinin yolları və metodları praktik olaraq göstərilmişdir. Üz əzələlərinin gərilməsi və hərəkət etdirilərək mimikalar üzrə işin aparılması nitq zamanı danışanın səsini idarəetmə bacarığının artmasına səbəb olduğunu müşahidə etmişdir. Yazılı çalışmalar üzərində praktik olaraq fasilənin (pauzanın) tapılması üzrə aparılan işlərdən belə qənaətə gəlmək olar ki, effektiv nitq nümayiş etdirməyə kömək edən vasitələrdən başlıcası pauzaları düzgün yerinə yetirməklə dərketməni təmin etməkdir. Məqalədə eyni zamanda nəfəs üzrə aparılan praktik təmrinlərin həm səsin, həm də surətin düzgün olmasına təsir etdiyi vurğulanır.

Ümumiyyətlə, aparılan ritorik yanaşmalar – nitqin məzmunu, məntiqi və psixoloji təsiri nəticəsində aydın və düzgün danışmaq, tələffüz normalarına əməl etmək, diksiyanı, eyni zamanda səs imkanlarını təkmilləşdirmək, nitqi zənginləşdirmək və onu məntiqi əsaslara uyğun qurmaq kimi bacarıqları aşılayır. Məqalədə nitq texnikalarının elmi əsaslarla təhlili və onların dinləyici üzərində təsiri də öyrənilmişdir.

***Açar sözlər:*** *nitq texnikaları, diksiya, intonasiya, artikulyasiya, fonetika, natiqlik*

**Fargana Aliyeva**
Police Academy of the Ministry of Internal Affairs
PhD in Philology
https://orcid.org/0009-0008-2504-3580
fargana-627@mail.ru

# Effective Speech Techniques in Public Speaking: Phonetic and Rhetorical Approaches

## Abstract

This article discusses the significance of speech techniques in ensuring effective verbal delivery during public speaking. Based on practical examples, intonation and articulation issues were observed and analyzed through phonetic and rhetorical approaches, and speech techniques were examined. The research methodology includes theoretical analysis, comparative analysis, and empirical observation.

Fragments from well-known speeches were analyzed by comparing clear and unclear speech samples to highlight the importance of voice tone, pause, stress, breathing, and correct articulation.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

The study demonstrates that these elements are essential components of effective public speaking. Additionally, the influence of linguistic factors on speech technique was observed, showing that empirical observations can greatly contribute to the development of speech techniques.

The research further provides practical methods for enhancing speech techniques. It was observed that exercises involving facial muscle control and mimicry positively impact a speaker's vocal management. Practice-based activities focusing on identifying appropriate pauses revealed that proper use of pauses significantly aids audience comprehension. Breathing exercises were also shown to improve both vocal quality and pacing.

In general, the rhetorical strategies explored abilities such as speaking clearly and accurately as a result of the content, the logical and psychological impact of speech, adhering to pronunciation norms, enhancing diction and vocal capabilities, enriching speech, and structuring it in accordance with logical principles. The article also presents the scientific analysis of speech techniques and their impact on the listener.

***Keywords:*** *speech techniques, diction, intonation, articulation, phonetics, public speaking*

## Giriş

Ünsiyyət bacarığı, çıxış etmək bacarığı hər bir fərdin, ziyalının həm şəxsi münasibətlərdə, həm də peşəkar münasibətlərdə mühüm amildir. İş prosesində insan öz nitq qabiliyyətinin gözəlliyi ilə daha peşəkar görünəcək, həm də daha təsirli münasibət qurmağı bacaracaqdır.

Gözəl nitq qabiliyyəti insanların hər hansı məsələ haqqında düzgün fikir söyləməsinə, fikirlərini doğru şəkildə ifadə etməsinə, problemi daha səmərəli şəkildə həll etmələrinə zəmin yaradır. Təsirli nitq bacarığına sahib olan insan digərlərindən seçilir və bu, ona bir çox müxtəlif situasiyalarda üstün cəhətlər qazandırır. Güclü danışıq qabiliyyəti olan insanlar bütün məsələlərin həll yollarını tapmaqda çətinlik çəkmir.

Nitq söyləyən zaman hər kəs öz fikrini düzgün, dəqiq və aydın şəkildə ifadə etməklə yanaşı, onu təsirli, emosional və inandırıcı şəkildə dinləyicilərə çatdırmağı bacarmalıdır. Nitq vasitələri ilə toplumun qəlbinə və düşüncəsinə nüfuz etmək vacibdir. Parlaq, orijinal, həmçinin ifadəli nitq dinləyənlərin hisslərinə təsir göstərir, onların diqqətini cəlb edir və məzmunun daha yaxşı başa düşülməsinə səbəb olur.

Nitqin effektivliyi yalnız dilin düzgün istifadəsi, məzmunun gözəlliyi ilə deyil, həm də səsin, tələffüzün, intonasiyanın və artikulyasiyanın düzgün tətbiqi ilə müəyyən olunur. Müasir dövrdə kommunikasiya vasitələrinin artması və ictimai danışığın aktuallaşması nitq texnikalarına olan marağı daha da artırmışdır. Nitq texnikaları dedikdə, çıxış edənin səsini idarəetmə bacarığı, düzgün nəfəs alması, sözdəki və ya cümlədəki vurğuların, pauzaların yeri, emosional tonlama və digər fonetik elementlər başa düşülür (Abdullayev, 2013).

**Tədqiqat**

Bu araşdırmada əsas məqsəd ritorik yanaşmalarla yanaşı, nitq texnikalarının elmi əsaslarla təhlili və onların dinləyici üzərində təsirini öyrənməkdir. Nitq insanın öz fikrini ifadə etməsi, sosial ünsiyyətdə iştirak etməsi və cəmiyyətlə qarşılıqlı əlaqə qurması üçün əsas vasitədir. Müasir dövrdə nitqin səlis, aydın və ifadəli olması təkcə filoloq və pedaqoqlar üçün deyil, ictimaiyyət qarşısında çıxış edən hər bir şəxs üçün vacib bacarıq sayılır. Nitqin keyfiyyətli qurulmasında nəfəsin idarə olunması, intonasiya, pauzalar, diksiyanın düzgünlüyü və səsin fonetik quruluşu mühüm rol oynayır.

Yaranış mərhələsində ritorik fəaliyyət nə qədər əhəmiyyətlidirsə, məzmunun dinləyiciyə necə çatdırılması da o qədər əhəmiyyətlidir. Natiq mövzunu hazırlayarkən dinləyicinin kim olacağı nə qədər önəmlidirsə, çıxış zamanı dinləyiciyə mövzunu nitq texnikasından məharətlə istifadə edərək çatdırması da bir o qədər önəmlidir. Natiqin effektiv nitqinin təsir gücü onun nəfəs, səs, sürət və pauzadan məharətlə, düzgün istifadə etməsindədir (Əkbərov, 2011).

Bu araşdırmada məqsəd nitq texnikasının əsas komponentlərini – nəfəs, tələffüz, intonasiya və pauzanı – fonetik baxımdan təhlil etmək, müxtəlif nitq janrlarında (pedaqoji, televiziya və ictimai nitq) bu elementlərin funksiyasını araşdırmaq və praktik tətbiq metodikasını təqdim etməkdir. Əlli nəfərlik auditoriyada iki pedaqoji, iki televiziya və iki ictimai nitq müşahidə olunmuşdur. İntonasiya və artikulyasiyanın auditoriya üzərində təsiri və tətbiqi sahələri araşdırılmışdır. Nitq texnikalarının düzgün isti-

fadəsi dinləyici üzərində hansı təsiri göstərdiyinin şahidi olmuş və bu nitqlərdəki mənfi və müsbət məqamlar müzakirə edilmişdir (Məmmədli, 2019).

L.R.Zinder etiraf edir ki, intonasiya nitq aktında insan duyğularının ifadəsi ilə sıx bağlıdır. Danışanın nitq aktında deyilənlərə münasibətini xarakterizə etmək onun linqvistik aspektinə aid edilə bilər, lakin emosional intonasiyanı adi intonasiyadan fərqləndirmək lazımdır (Zinder, 1979, p. 269).

İnsanın hiss və həyəcanının nitqə birbaşa təsir etməsini biz müşahidə etmişik. Çıxışın səmərəli və dinləyici tərəfindən sevilməsi, inandırıcı alınması üçün danışmazdan öncə şüuraltı qorxunun aradan qaldırılması və nəfəs üzrə çalışmalar aparmaq lazımdır. Şüuraltı qorxu və duyğulanmaq intonasiyanın titrəməsinə və inamsızlıq mikrojestlərinə (qızarmaq, gözləri qırpmaq və s.) səbəb olan amillərdəndir. Çıxış edərkən dinləyici önündə güclü hisslərdən biri qorxu hissidir. İnsanlar qorxur ki, yaxşı danışa bilməz, səhv edər və dinləyicilər onun çıxışını bəyənməz. Toplum önündə çıxış etmək qorxusu isə ən çox qarşılaşdığımız hisslərdəndir (Əliyeva, 2023).

İnsan beyni təhlükə siqnalına, risklərə qarşı çox həssasdır. Toplum önündə danışmaq da bir çox insan üçün təhlükə siqnalını aktivləşdirə bilər. Çıxış etmək qorxusunu özümüzdən uzaqlaşdırmaq üçün müxtəlif texnikalar mövcuddur. Bu texnikalar vasitəsilə insan istəsə, öz daxilindəki qorxuya hökm edə bilər. Əvvəlcə başa düşməliyik ki, səhnəyə çıxarkən yaşanan həyəcan olduqca təbiidir. Bu hissin varlığına görə, əslində, sevinmək lazımdır. Səhnə həyəcanı dəfələrlə səhnəyə çıxmış peşəkar natiqlər, aparıcılar, aktyorlar və s. üçün də təbii bir haldır. Biz səhnədə özümüzdən əmin görünmək istəyirik. Kənardan baxanlar "Bu adam nə yaxşı danışır. Onun gözəl məntiqi var. Nə danışdığını yaxşı bilir." – deyə düşünsün. Rahat, pozitiv və özümüz haqqında yüksək fikirdə görünməliyik (Məmmədli, 2022).

Rahatlığımızı nəfəs idmanı ilə də təmin edə bilərik. Məsələn, rahat dayanırıq, gözlərimizi bağlayırıq, 1, 2, 3, 4 saymaqla burnumuzla dərin bir nəfəs alırıq, qarın boşluğunu xaricə doğru genişləndiririk. 1, 2, 3, 4 saymaqla fasilə veririk və 1, 2, 3, 4 saymaqla nəfəsi veririk. Yenidən 4 saymaqla təkrar edirik. Nəfəs alarkən əmin oluruq ki, mümkün qədər çox havanı içərimizə çəkirik. Dərin bir nəfəs aldıqdan sonra yavaşca ağzımızdan nəfəsi veririk. Bu sırada qarın bölgəmiz içəri doğru çəkilir. Nəfəsi verərkən heç bir şey düşünmürük, rahatlaşmağa fokuslanırıq. Nəfəs alıb-vermə prosesini bir neçə dəfə təkrarlayırıq. Hər dəfə daha çox rahatlaşır və başqa düşüncələri isə bir kənara qoyuruq. Bu, beynimizə daha çox oksigenin getməsinə və sakitləşməyimizə səbəb olacaq. Bu nəfəs texnikasından kütlə qarşısında danışmazdan bir az əvvəl istifadə edə bilərik. Dərin və nəzarətlə nəfəs almaq bədəni rahatladır və parasimpatik sinir sistemini hərəkətə keçirir, ürəkdöyünməsini və nəfəs alıb-vermə sürətini yavaşladır (Əliyeva, 2025, pp. 67–68).

İnformasiya əsrimizdə fonetika getdikcə daha çox diqqəti cəlb edir. Nitq ünsiyyətinin dəqiqliyini və reallığını yaxşılaşdırmaq üçün fonetik texnologiyanın inkişafının aktuallığı vacibdir. M.Jameel fonetik baxımdan effektiv nitqdə nəfəs almanın rolunu araşdıraraq, nəfəsin tələffüzə necə təsir etdiyini, nitqi başa düşməyin, aydın və inamlı çatdırılma üçün çox vacib olduğunu təklif edir. Bu sahədə aparılan tədqiqatlarda vurğulanır ki, nitq zamanı tənəffüs nitq dili üçün lazım olan davamlı hava axınını dəstəkləmək üçün daha koordinasiyalı, daha qısa inhalyasiya (nəfəsin alınması) və daha uzun ekshalasiyaları (nəfəsin verilməsi) əhatə edən istirahət nəfəsindən əhəmiyyətli dərəcədə fərqlənir (Jameel, 2018).

İnsan nitqi əsasən ekshalasiya axını üzərində qurulur. Səsli nitq yaranarkən biz nəfəsimizi veririk, hava səs tellərindən və artikulyasiya orqanlarından keçərək səsləri əmələ gətirir. Üz əzələlərinin fiziki cəhətdən düzgün formalaşması da səsin düzgün ifadəsi üçün əhəmiyyətlidir. Bu məqsədlə üz əzələlərinin gərilməsi məşqləri həyata keçirmək və fərqli dildə ünsiyyət qurmaq daha səmərəli nəticə verir.

M.Jameel, eyni zamanda, müasir dövrdə kompüter texnologiyasının sürətli inkişafı ilə yazının əhəmiyyətinin getdikcə azaldığını qeyd edərək, smartfonlarda da indi demək olar ki, bütün söhbət proqramlarının səsli mesaj formatında icra olunduğunu söyləmişdir. Bu, insanın vaxtına qənaət etməsinə kömək edir, lakin başqa problem yarana bilər: səsli mesajda danışan müxtəlif səbəblərdən (tələsik nəfəs alması, özünü pis hiss etməsi, artikulyasiyaya xüsusi diqqət yetirməməsi) düzgün olmayan fonetika ilə danışırsa, rabitə pozulur (Jameel, 2018).

S.Şipunov isə *Xarizmatik natiqlik* kitabında qeyd edirdi ki, insan entuziazm, coşqu, istək, həvəs və enerji ilə çıxış etdikdə dinləyicinin dərketməsini təmin edir və çıxışa marağı artırır. Çıxışın

məzmunu nə qədər yaxşı olsa da, əgər səs və enerji zəifdirsə, dinləyici üçün darıxdırıcı olacaq (Şipunov, 2007, pp. 64–65).

Məlumdur ki, nitqin əsas funksiyası kommunikativ funksiyadır. Ancaq nitqin vəzifəsi sadəcə xəbər verməkdən, adi informasiyadan uzaqlaşdıqca, nitqin onu dinləyənə aktiv təsiri artdıqca digər bir funksiya – estetik-üslubi funksiya özünü daha çox təzahür etdirir, çünki nitq hadisələri üslubi səciyyə daşıyır.

Nitqin intonasiyası eyni zamanda dinləyicinin diqqətini cəlb etmək və onun marağını artırmaq üçün istifadə olunur. Monoton, intonasiyasız danışıq dinləyicidə maraqsızlıq yarada və nitqin mənasının itirilməsinə səbəb ola bilər. Buna görə də təbii və zəngin intonasiya ilə danışmaq nitq sənətinin əsas göstəricilərindən biridir. Xarici dillərin öyrənilməsində də intonasiyanın rolu böyüktür. Dil öyrənən şəxsin sözləri düzgün tələffüz etməsi kifayət deyil; düzgün intonasiya ilə danışması da vacibdir. İntonasiya nitqin təbii səslənməsinə və doğru mənanın çatdırılmasına imkan yaradır. Belə ki, intonasiyasız danışıq bəzən mənasız və ya anlaşıqsız olur (Məmmədova, 2016).

Nitqin intonasiyasını inkişaf etdirmək mümkündür. Bunun üçün müxtəlif məşqlərdən istifadə olunur: mətnlərin fərqli duyğularla səsləndirilməsi, sual və bildiriş cümlələrinin tələffüzünün fərqləndirilməsi, şeir və natiqlik nümunələrinin öyrənilməsi və səs tonunun idarə olunması üzərində iş. Bu məşqlər nitqin zənginliyini artırır və nitq mədəniyyətinin yüksəlməsinə xidmət edir.

Nəticə olaraq, nitqin intonasiyası nitq mədəniyyətinin ayrılmaz hissəsidir. O, danışığın mənasını, emosiyasını və strukturunu formalaşdırır, həmçinin dinləyicinin nitqi daha yaxşı qavramasına imkan verir. İntonanasiyanın düzgün və yerində istifadəsi insanın danışıq qabiliyyətini inkişaf etdirir və nitqin təsir gücünü artırır. Buna görə də nitqin intonasiyasına xüsusi diqqət yetirmək, onu təkmilləşdirmək hər bir natiq üçün vacibdir (Şiriyev, 2014).

Estetik zövq nitqdəki fasilələrdə də öz əksini tapmalıdır. Nitqdə tənəffüs dövrləri – bir nəfəs aktından digərinə qədərki nitq seqmentidir. Tənəffüs dövrləri əsasən mətnin qrammatik və semantik quruluşuna uyğun qurulmalıdır. Məna baxımından əlaqəli söz və ifadələrin ortasında pauza verilməsi dinləyicidə mənanı anlamaqda çətinlik yaradır. Mətn üzərində pauza və nəfəs planlaşdırması məşqləri bu bacarığın inkişafında mühüm rol oynayır.

**Nəfəs yerlərinin düzgün planlaşdırılması:**
• Nitqin məna vurğularını qoruyur;
• Dinləyicinin fikri izləməsini asanlaşdırır;
• Natiqin səsini və tempini sabit saxlayır.

**Qiymətləndirmə cədvəli.**

| № | Meyarlar | Açıqlama |
|---|---|---|
| 1. | Artikulyasiya | Sözlərin aydın şəkildə tələffüzü |
| 2. | Nəfəsin idarə olunması | Nəfəsin düzgün paylanması, pauzaların yerində verilmə |
| 3. | Temp və ritm | Nitqin nə çox sürətli, nə də çox ləng olması |
| 4. | İntonasiya və vurğu | Məna vurğusu, emosional uyğunluq, monotonluqdan uzaqlıq |
| 5. | Səsin tembri və gücü | Səsin eşidilən olması, tonallıq, yorucu olmaması |
| 6. | Ümumi təəssürat | Diksiyalı çıxışın peşəkarlığı və inandırıcılığı |

Tələbələr verilmiş nitqləri dinlədikdən sonra qiymətləndirmə cədvəlindəki meyarlara əsasən çıxışları təhlil edirlər. Belə qənaətə gəlindi ki, nitqlərin aşağıdakı xüsusiyyətləri onları nitq texnikası baxımından bir-birindən fərqləndirir.

**Pedaqoji nitqin xüsusiyyətləri:** aydın, ritmik və yavaş temp, ifadəli intonasiya, diksiyanın yüksək səviyyəsi, sözlər arasında məna əsaslı pauzalar, termin və anlayışların düzgün tələffüzü.

**Televiziya nitqinin xüsusiyyətləri:** neqativ emosiyadan uzaq, neytral və etibarlı səs tonu, ifadəli və dinamik intonasiya, sürətli, lakin anlaşılan temp, tələffüzün standart ədəbi norma ilə uyğunluğu.

**İctimai nitqin xüsusiyyətləri:** güclü və nəzarət olunan səs, emosional intonasiya, pauzalarla fikrin vurğulanması, tempin auditoriyaya uyğun tənzimlənməsi (Roach, 2009).

## Nəticə

Ümumiyyətlə, nitq janrları müxtəlif kontekstlərdə və müxtəlif məqsədlərlə tətbiq edildikdə, hər bir nitq növü öz üslubuna, intonasiya quruluşuna, tempinə, tələffüz normasına və nəfəs bölgüsünə görə fərqlənir. Fonetik cəhətdən hər bir janrın özünəməxsus intonativ model, pauza sistemi, vurğu gücü və tələffüz intizamı olur.

Müşahidə etdiyimiz nitqlərdə dil və nitq qüsurları aşkar edilmişdir. Onların nitqində ədəbi dilimizin normalarına uyğun olmayan əcnəbi sözlərin işlədilməsi, cümlənin düzgün intonasiya ilə deyilməməsi, məntiqi vurğunun düzgün qoyulmaması və s. kimi məqamlar diqqəti cəlb etmişdir. Nitqdə bəzi ləhcə qüsurları da müşahidə olunmuşdur.

Müasir dövrdə texnikanın inkişafı nəticəsində radio və televiziya verilişlərində yazılmış nitqi efirə verməzdən əvvəl lentin montajı hər cür qüsurları aradan qaldırmağa imkan verir. Lazımsız pauzaları, təkrarları və hətta kəkələmə kimi bəzi diksiya qüsurlarını aradan qaldırmaq mümkündür. Televiziya ən vacib kütləvi ünsiyyət vasitələrindən biridir və dinləyicilərin ağlına, iradəsinə və davranışlarına təsir göstərir.

Aparılmış fonetik təhlillər göstərdi ki, nitq texnikasının düzgün tətbiqi – nəfəsin idarəsi, intonasiya, diksiyanın dəqiqliyi və pauzaların yerində istifadəsi – nitqin emosional və məna yüklü, eyni zamanda təsirli şəkildə səsləndirilməsinə şərait yaradır. Müxtəlif nitq janrlarında bu elementlərin rolu dəyişsə də, əsas məqsəd – dinləyici ilə effektiv ünsiyyətin qurulmasıdır. Təhlil göstərdi ki, professional aparıcıların nitqində nəfəsin idarəsi və emosional vurğular daha dəqiq şəkildə istifadə olunmuşdur. Müəllimlərin nitqində isə intonasiya və pauza texnikası orta səviyyədə olsa da, açıq tələffüz və aydınlıq daha güclü müşahidə edilmişdir. İctimai natiqlərin çıxış-larında isə vurğuların yerində olmaması və pauzaların uyğunsuzluğu ümumi nitq təsirini zəiflətmişdir. Dinləyici sorğusunun nəticələrinə görə, 65% dinləyici aparıcının nitqini "ən təsirli", 20% dinlə-yici müəllimin nitqini, 15% isə ictimai çıxışlara qarşı müsbət münasibət bildirmişdir.

Nitq növlərinə uyğun fonetik texnikaları bilmək çıxış edənin təqdimat gücünü artırır, dinləyici ilə əlaqəni möhkəmləndirir və nitqin peşəkarlığını təmin edir. Səs təkcə eşidilən bir şey deyil – fikrin, hissin və şəxsiyyətin daşıyıcısıdır. Buna görə də, nitq növündən asılı olaraq fonetik tələblərə əməl etmək peşəkarlığın və effektiv nitqin əsas göstəricisidir.

## Ədəbiyyat


1. Abdullayev, N. Ə. (2013). *Nitq mədəniyyətinin əsasları.*
2. Əkbərov, A. (2011). *Fonetik sistem və intonasiya*. Elm və Təhsil.
3. Əliyeva, F. A. (2023). *Ritorika.* Bakı MMC. DOI https://doi.org/10.36719/0828/2025
4. Əliyeva, F.A. (2025). *Ritorika fənni üzrə tədris-metodik vəsait.* Bakı MMC. DOI https://doi.org/10.36719/0827/2025
5. Məmmədli, N. (2022). *Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.* Elm və Təhsil.
6. Məmmədli, T. (2019). *Nitq texnikası və səs üzərində işləmə metodikası*. Təhsil.
7. Məmmədova, S. (2016). *Nitq mədəniyyəti və ifadəli oxu*. ADPU nəşriyyatı.
8. Şiriyev, F. (2014). *Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika*. Nurlar Nəşriyyat Mərkəzi
9. Şipunov, S. (2007). *Xarizmatiçnıy orator.* Universitet Ritoriki Oratorskoqo Masterstva.
10. Jameel, M. (2018). "The Role of Breathing in Effective Public Speaking: A Phonetic Perspective." *International Journal of Speech and Language*, 5(2), 34–45.
11. Roach, P. (2009). *English Phonetics and Phonology*. Cambridge University Press.
12. Zinder, L. P. (1979). *General Phonetics.* Higher school.


Daxil oldu: 05.04.2025
Qəbul edildi: 16.09.2025